**ELŞAD MIRBƏŞIR OĞLU**
*siyasi elmlər namizədi*

# MÜASIR SIYASI MÜNAQIŞƏLƏRIN TƏNZIMLƏNMƏSI PROSESINDƏ MEDIASIYA

Mediasiya–münaqişə subyektlərinə, üçüncü bir tərəfin problemin aradan qaldırılmasında kömək etməsidir. Mediator münaqişə tərəflərinin könüllü razılığa gəlmələrini şərtləndirir.(1) Çünki, mediator tərəflərin dialoqunu təşkil etməklə, onlara öz mövqelərini və maraqlarını bəyan etmək imkanı verir. Bu mənada siyasi münaqişələrin həlli prosesinə mediatorun, yəni, üçüncü tərəfin cəlb edilməsi lap qədim zamanlardan böyük əhəmiyyət kəsb etmişdir. Mediatorun tənzimləmə prosesinə cəlb edilməsini, yuxarıda göstərilən pozitiv tərəflərlə yanaşı, digər mühüm məqamlar da şərtləndirir. Belə ki, münaqişə iştirakçıları bir tərəfli fəaliyyətin əhəmiyyətsiz olduğunu dərk etdikdən sonra, adətən birgə fəaliyyət formasına can atırlar. Artıq qeyd etdiyimiz kimi, düşmən münasibətlərində olan münaqişə subyekləri, kommunikasiya kanalları olmadan öz birgə fəaliyyətlərini reallaşdıra bilmirlər. Məhz bu zaman münaqişə subyektləri üçüncü tərəfin xidmətlərindən bəhrələnmək qərarına gəlirlər. Qədim zamanlardan başlayaraq mediator rolunda bir qayda olaraq cəmiyyətin adlı–sanlı adamları çıxış edirdilər. Onlar münaqişə edən tərəflər arasında dayanaraq, məsələni dinc yolla həll aradan qaldırılmasına çalışırdılar. Münaqişənin həllinə cəlb edilmiş bu adamlar günahkar və günahsız tərəfi müəyyən edirdilər və çıxarılan qərarlar onların iradəsindən asılı olurdu. Orta əsrlər Avropasında milli dövlətlərin yaranmasına qədər mediator roma papası çıxış edirdi. Həmin dövrlərdə roma papası mediatordan çox hakim funksiyasını yerinə yetirirdi. Problemin hansı yolla həll ediləcəyini ancaq o müəyyən edirdi. Müstəqil dövlətlərin meydana gəlməsi ilə münaqişələrin həllində roma papasının rolu xeyli zəifləmişdir. Çünki, artıq hesab edilirdi ki, cəmiyyətdə baş verən ziddiyyətlərin aradan qaldırılması ancaq dövlətin səlahiyyətləri çərçivəsinə daxildir və kilsənin bu məsələlərə müdaxiləsi dövlətin rolunu və müstəqilliyini məhdudlaşdırır.(2, s.106)

Milli dövlətlərin özləri yarandıqları bir vaxtdan müasir dövrümüzədək beynəlxalq münaqişələrin tənzimlənməsi prosesində daim mediator rolunda fəal şəkildə çıxış etmişlər. Çünki, münaqişələr, xüsusilə də beynəlxalq silahlı münaqişələr onların milli maraqlarına toxunurdu. Qeyd etmək lazımdır ki, müasir dövrümüzdə mediator rolunda təkcə ayrı–ayrı dövlətlər deyil, həmçinin dövlətlər qrupu, beynəlxalq universal və regional təşkilatlar, kilsə, qeyri–rəsmi institutlar və təşkilatlar, hətta ayrı–ayrı şəxslər də çıxış edirlər. Hətta münaqişələrin tənzimlənməsində qeyri–hökumət təşkilatlarının rolu get–gedə daha da artmaqdadır. Onu da qeyd etmək vacibdir ki, elmi ədəbiyyatlarda "mediator" və "mediasiya" terminləri əksər hallarda sadəcə olaraq, "üçüncü tərəf" və "vasitəçi" sözləri ifadə edilir. Lakin, medaitor nisbətən dar çərçivədə fəaliyyət göstərir. Yəni, üçüncü tərəf ümumiyyətlə münaqişənin tənzimlənməsi istiqamətində ən müxtəlif- həm zorakı, həm də dinc-vasitələri tətbiq etdiyi halda mediator sırf könüllülük prinsipinə söykənir. Yəni, mediator bir qayda olaraq, hər hansı bir qərarın qəbul edilməsi prosesində münaqişə subyektlərinə qarşı təziq göstərmir. Bu baxımdan, bizim "üçüncü tərəf" ifadəsindən istifadə etməyimiz daha məqsədəuyğun olar.

Üçüncü tərəf anlayışı çox geniş, eyni zamanda yığcam bir anlayışdır. Siyasi münaqişələrin tənzimlənməsində üçüncü tərəf dedikdə "vasitəçi", "danışıqlar prrosesini müşahidə edən" və "arbitr" başa düşülür. Vasitəçi və ya müşahidəçi statusuna malik olmayan, lakin tərəflər arasında baş vermiş münaqişənin həlli məsələsi ilə məşğul olan

istənilən şəxs üçüncü tərəf kimi qəbul edilə bilər. Ümumiyyətlə münaqişə iştirakçılarından başqa münaqişənin tənzimlənməsi prosesinə cəlb olunmuş hər hansı bir tərəf üçüncü tərəf adlanır. Qeyd etmək lazımdır ki, üçüncü tərəf məhz münaqişəni tənzimləmək məqsədilə prosesə qarışa bilər. Yəni, üçüncü tərəf mediator(vasitəçi) rolunda tənzimləmə prosesində iştirak edə bilər. Münaqişələrin tənzimlənməsi prosesinə cəlb edilmiş üçüncü tərəfin münaqişə iştirakçılarından birinə dəstək verməsi istər – istəməz onu münaqişələrin subyektlərindən birinə çevirir. Deməli, onu artıq mediator adlandırmaq olmaz. Üçüncü tərəf, heç bir marağa malik olmadan tam bitərəf mövqe tutmaqla tənzimləmə prosesində iştirak etdiyi halda mediator kimi qəbul edilir.

Üçüncü tərəf münaqişələrin həlli proesinə həm müstəqil şəkildə, həm də münaqişə iştirakçılarının xahişi ilə qarışa bilərlər.(3, s.597) Münaqişələrin həllinə cəlb edilmiş üçüncü tərəfin münaqişə iştirakçılarına təsir vasitələri müxtəlif xarakterli ola bilər. Bu təsir vasitələrindən əsasən iki qrupu fərqləndirir.

1.İnandırma və münaqişənin dinc vasitələrlə həlli yollarının tapılmasındaköməklik;

2.Məcburetmə, təzyiq göstərmə və tərəflərin münaqişə fəaliyyətlərini məhdudlaşdırma.

İnandırma və problemin həlli yollarının tapılmasında köməklik tənzimləmə prosesinə cəlb edilmiş üçüncü tərəfin başlıca vəzifəsidir. Bu zaman üçüncü tərəf fəaliyyətini əsasən danışıqlar prosesinin təşkilinə yönəldir. Ümumiyyətlə isə münaqişənin tənzimlənməsi prosesində iştirak edən üçünü tərəf müxtəlif fəaliyyət növlərini reallaşdıra bilər. Daha dəqiq desək, tənzimləmə prosesinə cəlb edilmiş üçüncü tərəfin əsas fəaliyyət istiqamətləri "vasitəçilikdən", "xoşməramlı xidmətlərin göstərilməsindən", "müşahidəçilikdən" və "arbitraj"dan ibarət olur.

Vasitəçilik siyasi münaqişələrin həlli prosesinə cəlb edilmiş üçüncü tərəfin ən geniş yayılmış və əsas fəaliyyət formsıdır. Diplomatik lüğətlərdə vasitəçilik beynəlxalq mübahisələrin tənzimlənməsinin dinc vasitələrindən biri kimi izah edilir.(4) Vasitəçiliyin mahiyyəti ondan ibarətdir ki, münaqişə iştirakçısı olmayan hər hansı bir üçüncü tərəf beynəlxalq hüquq normalarına uyğun olaraq münaqişə subyektləri arasında danışıqları təşkil edir. Qeyd edək ki, mübahisələrin həlli zamanı vasitəçilik xidmətlərinin həyata keçirilməsi təcrübəsi çox qədim tarixə malikdir. Belə ki, vasitəçilik xidmətlərindən qədim Yunanıstanda yunan şəhərləri arasında baş vermiş mübahisələri həll edərkən geniş istifadə olunmuşdur. Tarixi mənbələr qədim Çində də üçüncü tərəfin vasitəçilik xidmətlərinə böyük əhəmiyyət verildiyini sübut edir. Tarixi inkişafın sonrakı mərhələlərində vasitəçilik xidmətlərindən istifadə daha da geniş yayılmışdır. Məsələn, 1904-1905–ci ilə baş vermiş rus–yapon müharibəsi ABŞ–ın mediasiya xidmətləri nəticəsində başa çatmışdır. Həmin dövrdə ABŞ öz ərazisində danışıqlar prosesini təşkil etmişdir və Portsmut şəhərində sülh müqaviləsi imzalanmışdır.(5)

İkinci dünya müharibəsindən sonra siyasi münaqişələrin həlli prosesində mediasiya xidmətlərindən daha geniş istifadə edilməyə başlanmışdır. Amerikalı tədqiqatçılar L. Sasskind və E.Babbittin verdikləri məlumata görə, 1945–ci ildən 1990–cı illərin əvvəlinə qədər Afrikada və Latın Amerikasında baş vermiş münaqişələrin 2/3-si, Yaxın Şərqdə baş vermiş münaqişələrin isə 4/5-i məhz mediatorların köməyi ilə tənzimlənmişdir.(6, s.123)Müasir dövrümüzdə baş vermiş münaqişələrin demək olar ki, böyük əksəriyyəti mediatorun bu və ya digər formada iştirakı ilə tənzimlənir. Bu, onunla izah oluna bilər ki, kütləvi qırğın silahlarının geniş vüsət tapdığı bir zamanda, münaqişələrin dinc vasitələrlə tənzimlənməsi təkcə münaqişə iştirakçıları üçün deyil, bütün dünya ictimaiyyəti üçün vacib əhəmiyyət kəsb edir.

Qeyd etmək lazımdır ki, vasitəçilik xidmətləri zamanı da münaqişə iştirakçılarına qarşı təzyiq metodları tətbiq edilə bilər. Belə təzyiqlər "hədələmə", "iqtisadi yardım göstərməkdən imtina etmək" və s. şəkildə olurlar. Lakin, buna baxmayaraq, ümumilikdə üçüncü tərəfin vasitəçilik xidmətləri münaqişə iştirakçıları arasında dialoq yaratmağa və beləliklə münaqişələri dinc vasitələrlə tənzimləməyə yönəlmişdir.

Münaqişə iştirakçıları mübahisəli məsələni mediatorun iştirakı olmadan, sərbəst şəkildə də həll edə bilərlər. Lakin, münaqişə subyektlərinin özləri problemi aradan qaldırmağa cəhd edən zaman bir sıra səhvlərə yol verə bilərlər. Bu isə münaqişənin tənzimlənməsi prosesinin illərlə uzanmasına səbəb olur. Bundan başqa, onların özləri, əldə edilmiş razılaşmanın şərtlərinin yerinə yetirilməsinə nəzarət etmək imkanlarına malik olmurlar. Ümumiyyətlə isə münaqişə subyektlərinin mediatora müraciət etmələrini aşağıdakı hallar zəruri edir:

1.tərəflər arasında uzunmüddətli qarşıdurma mövcud olması;

2.münaqişə edən tərəflər kommunikasiya kanallarının olmaması;

3.tərəflərin öz "siyasi simalarını" itirməkdən çəkinərək güzəştə getmək istəməməsi;

4.münaqişə iştirakçılarının mədəniyyətlərində, ideologiyalarında və adət – ənənələrində kəskin fərqlər olduqda və s.

Qeyd etmək lazımdır ki, yuxarıda sadaladıqlarımızın heç də hamısı vasitəçiyə müraciət etmək üçün mütləq şərt kimi çıxış etmir. Münaqişə subyektlərinin üçüncü tərəfə müraciət etmələrinə onların hərbi-iqtisadi potensialları da əhəmiyyətli təsir göstərir. Yəni, münaqişə iştirakçıları qeyri–bərabər qüvvəyə malik olduqda, zəif tərəf öz mövqelərini nisbətən gücləndirmək məqsədi ilə danışıqlara vasitəçilərin müşaiyəti ilə getməyə çalışdığı halda, qüvvətli tərəf isə əksinə, birbaşa danışıqlara can atır.

Münaqişə iştirakçıları tənzimləmə prosesinə mediatorun cəlb edilməsini bir sıra motivlərlə izah edirlər. Belə ki, onların fikrincə:

1.mübahisəli məsələnin üçüncü tərəfin iştirakı ilə həll etmək daha asan və təminatlıdır;

2.problemin həlli prosesində üçüncü tərəfin iştirakı onun(hər biri özünü nəzərdə tutur) xeyrinədir;

3.üçüncü tərəfin iştirakı ilə əldə olunmuş razılşamanın şərtlərinə rəqib tərəf əməl etməlidir;

4.münaqişələrin tənzimlənməsi uğursuzluqla nəticələndikdə məsuliyyəti üçüncü tərəfin üzərinə atmaq olar ;

5.üçüncü tərəf onlara vasitəçi qismində problemin həlli yollarının tapılmasında real köməklik göstərə bilər.

Bəzi tədqiqatçılar qeyd edirlər ki, vasitəçinin missiyası, yalnız münaqişənin həlli yolunu tapmağa kömək etməkdən ibarətdir. Lakin, bu bir qədər yalnış mövqedir. Münaqişənin tənzimlənməsi prosesinə cəlb edilən vasitəçi, problemin xarakterindən asılı olaraq digər məsələlərli həll etməli olur. Münaqişə probleminin görkəmli tədqiqatçılarından olan C.Uoll qeyd edir ki, siyasi münaqişələrin tənzimlənməsi prosesinə cəlb edilmiş vasitəçi 50–yə qədər vəzifəni yerinə yetirir. (6, s.125) Bunlardan beşi daha əhəmiyyətlidir:

1.vasitəçi münaqişə iştirakçılarını problemin birgə həlli yollarının tapılmasına istiqamətləndirir;

2.münaqişə iştirakçılarının öz maraq və məqsədləri haqqında informasiya mübadiləsi etmək üçün lazımi şərat yaradır;

3.münaqişə vəziyyətinin təhlil edilməsində və hər iki tərəfin maraqlarına cavab verə biləcək qərarların qəbul edilməsində köməklik göstərir, öz təkliflərini irəli sürür;

4.münaqişə iştirakçılarının "siyasi sima"sının qorunub saxlanmasını təmin edir;

5.münaqişələrin tənzimlənməsi prosesində tərəflərin qarşılıqlı fəaliyyətlərinə və əldə olunmuş razılaşmaların şərtlərinə əməl edilməsinə nəzarəti həyata keçirir.

Birinci halda vasitəçinin köməyi ilə münaqişə iştirakçıları bir tərəfli fəaliyyətdən birgə fəaliyyəti keçirlər. Münaqişə subyektlərinin birgə fəaliyyətə keçmələrini təmin etməyin özü olduqca çətin prosesdir və mediatordan böyük səy və təmkin tələb edir. Bəzən, tərəflər birgə fəaliyyət haqqında razılığa gəlsələr də yenidən birtərəfli addımlar atırlar. Bu zaman vasitəçinin vəzifəsi ondan ibarət olur ki, belə halların təkrarlanması səviyyəsini minimuma endirsin. Münaqişə iştirakçılarını birgə fəaliyyətə istiqamətləndirərkən vasitəçi nəzərə almalıdır ki, hər iki tərəfin siyasi elitası daxilində problemin həlli yolları ilə bağlı qütbləşmə mövcud ola bilər. Yəni, bir qrup problemin dinc vasitələrlə həllini dəstəklədiyi halda, digər bir qrup bunun əksinə çıxış edə bilər. Münaqişənin tənzimlənməsi prosesinə cəlb edilmiş vasitəçi hər iki qrupun mövqelərini nəzərə almaqla fəaliyyətini səmərəli qurmağı bacarmalıdır.

İkinci halda münaqişə iştirakçılarına problemi birgə müzakirə etməsi üçün, vasitəçi etibarlı kommunikasiya kanalları yaradır. İlkin olaraq birbaşa deyil, vasitəçinin köməyi ilə informasiya mübadiləsi həyata keçirilir. Vasitəçinin köməyi ilə informasiya mübadiləsinin həyata keçirilməsi bir sıra neqativ halları aradan qaldırmış olur. Məsələn, tərəflərin bir–birlərinə qarşı yönəltdikləri kəskin ifadələri vasitəçi qismində çıxış edən üçüncü tərəf nisbətən yumşaq formada çatdırır. Vasitəçi, həmçinin verilən informasiyanın düzgünlüyünün təminatçısı rolunda çıxış edir.

Qeyd etmək lazımdır ki, vasitəçilərin köməyi ilə informasiya mübadiəsinin həyata keçirilməsi münaqişələrin daha tez tənzimlənməsi prosesini ləngidir. Bu baxımdan vasitəçinin əsas vəzifələrindən biri də münaqişə iştirakçıları arasında birbaşa kommunikasiya kanallarının yaradılmasından ibarətdir. Bu zaman yalnış informasiyaların sızdırılmaması üçün tərəflərin bir–birlərinə qarşılıqlı etibarlarının olması vacibdir.

Üçüncü halda münaqişə iştirakçıları vasitəçilərin köməyi ilə böhranlı vəziyyəti birgə müzakirə edib qiymətləndirirlər. Vasitəçi həmçinin tərəflərə problemin həllinin konstruktiv yolunun tapılmasındaköməklik edir.

Dördüncü halda vasitəçi münaqişə iştirakçılarına "siyasi simalarını" qorumaqda kömək edir. Yəni, vasitəçi çalışır ki, münaqişənin dinc vasitələrlə həll edilməsi tərəflərdən birinin məğlubiyyəti kimi qəbul edilməsin. Bu məqsədlə vasitəçi problemin dinc vasitələrlə həll edilməsinin əsas səbəbkarı kimi çıxış edir. Münaqişə edən tərəflərdən hər biri, qarşı tərəfin irəli sürdüyü təklifi qəbul etməkdən imtina edə bilər. Belə olan halda anoloji təkliflə vasitəçi də çıxış edir. Vasitəçinin irəli sürdüyü təklifi qəbul etməklə münaqişə subyektləri bir növ siyasi simalarını qorumuş olurlar.

Beşinci halda vasitəçi tərəflərin qarşılıqlı fəaliyyət qaydalarını müəyyənləşdirir və əldə olunmuş razılaşmanın şərtlərinin yerinə yetirilməsinə nəzarət edir.

Münaqişənin tənzimlənməsi prosesində üçüncü tərəfin yerinə yetirdiyi vəzifələr demək olar ki, bir–birləri ilə sıx əlaqədə olurlar. Belə ki, münaqişə iştirakçıları arasında kommunikasiya kanallarının bərpa olunaraq inkişaf etdirilməsi, onlara yaranmış vəziyyəti düzgün qiymətləndirməyə imkan verir. Tərəflərin problemin birgə həlli yollarının axtarılmasına istiqamətləndirilməsi isə kommunikasiya kanallarının yaranmasına gətirib çıxarır.

## *ƏDƏBİYYAT*

1.Вишневская А.В. курс лекций "Конфликтология"//www.humanities.edu.ru/db/msg/46610
2.Лебедева М.М. Политическое урегулирование конфликтов. М. Аспект-Пресс, 1999. с.106.
3.Wittmer J. M., Carnevale P. and Walker M. E. General Alegnment and Overt Support in Biased Medition//The Journal of Conflict Resolution. 1991. Vol. 35 (4). P. 594—597.

4.Юридический словарьhttp//dic.academic.ru/dic.nsf/lower/17273
5.Русско-японская война 1904—1905 гг. Работа военно-исторической комиссии по описанию действий флота в войну 1904—1905 гг. при Морском ген. Штабе. - КН.1-4, 6, 7. - СПб.-Пг., 1912-1917.
6.Лебедева М.М. Политическое урегулирование конфликтов. М. Аспект-Пресс, 1999. с.123.

**ЭЛЬШАД МИРБАШИР О.**

## МЕДИАЦИЯ В ПРОЦЕССЕ УРЕГУЛИРОВАНИЯ ПОЛИТИЧЕСКИХ КОНФЛИКТОВ

Медиация- это помощь третей стороны субъектам конфликта в процессе урегулирования конфликтов. Медиатор обуславливает взаимовыгодное соглашение между субъектами конфликта. Организуя диалог сторон, медиатор дает возможность сторонам объявить о своих намерениях и позициях.

**ELSHAD MIRBASHIR O.**

## TO MEDIA IN THE PROCESS OF REGULATION OF THE MODERN POLITICAL CONFLICTS

Media to subject, is helping liquidate of the problem of the 3rd side. Mediator helps volunteer come to an agreement of the conflict sides. Because, mediator gives opportunity of to declare positions and interests them with organize dialogue of the sides.

***Rəyçilər: fəl.e.n.N.S.İbadov, t.e.d.R.C.Süleymanov.***
***BDU-nun Politologiya və sosiologiya kafedrasının 27 fevral 2010-cu il tarixli iclasının qərarı ilə çapa məslhət görülmüşdür (protokol №10).***